# 2012-ci il ərzində Naxçıvan Muxtar Respublikasının xarici ticarətinin vəziyyəti

Naxçıvan Muxtar Respublikasının 2012-ci il ərzində 40 ölkə ilə aparılmış ticarət əməliyyatlarının həcmi **450914,6** min ABŞ dolları olmuşdur. Bu müddət ərzində **373482,4** min ABŞ dolları dəyərində mal ixrac, **77432,2** min ABŞ dolları dəyərində mal idxal olunmuş, idxal-ixrac əməliyyatları üzrə müsbət saldo **296050,2** min ABŞ dolları təşkil etmişdir. 2011-ci ilə nisbətən 2012-ci ildə ixrac əməliyyatlarının həcmi 15,8 % (51170,1 min ABŞ dolları) artmış, idxal əməliyyatlarının həcmi 1 % (816,3 min ABŞ dolları) azalmışdır.



İxrac əməliyyatlarında xüsusi çəkisi böyük olan dövlətlərdən Türkiyə Respublikası, İran İslam Respublikası, Rusiya və digərlərinin adlarını çəkmək olar. Hesabat dövrü ərzində 373482,4 min ABŞ dolları dəyərində mal ixrac olunmuşdur ki, bunun 280622,1 min ABŞ dollarını, yəni ümumi ixracın 75,14 %-ni sənaye məhsulları, 92860,3 min ABŞ dollarını, yəni ümumi ixracın 24,86 %-ni isə kənd təsərrüfatı məhsulları təşkil etmişdir.




İdxalın strukturunda əsas yeri tutan əmtəələrin miqdarı və dəyəri aşağıdakı kimidir:

| | **Çəki (min ton)** | **Dəyər (min ABŞ dolları)** |
|---|---|---|
| 1. Sənaye məhsulları- | 3935,8 | 41718,2 |
| 2. Nəqliyyat vasitələri və onların hissələri- | 3819,3 | 23329,6 |
| 3. Ərzaq məhsulları- | 8874,1 | 7744,1 |
| 4. Tikinti materialları- | 3372,6 | 3910,6 |
| 5. Digərləri- | 313,8 | 729,7 |
| **Cəmi:** | **20315,7** | **77432,2** |




Hesabat dövrü ərzində idxal əməliyyatları aparılan ölkələr aşağıdakı kimi olmuşdur:

| S/s | Dövlətin adı | Statistik dəyər (ABŞ dolları) | Ümumi idxala nisbət (faizlə) |
|---|---|---|---|
| 1 | Türkiyə Respublikası | 27072232.03 | 34.96 |
| 2 | Almaniya Federativ Respublikası | 10696283.59 | 13.81 |
| 3 | Amerika Birləşmiş Ştatları | 6665969.12 | 8.61 |
| 4 | Çin Xalq Respublikası | 6404717.33 | 8.27 |
| 5 | İran İslam Respublikası | 4996360.55 | 6.45 |
| 6 | Müxtəlif | 4184575.39 | 5.4 |
| 7 | Yaponiya | 3566824.77 | 4.61 |
| 8 | Böyük Britaniya və Şimali İrlandiyanın Birləşmiş Krallığı | 3290308.16 | 4.25 |
| 9 | Qazaxıstan Respublikası | 1605335.00 | 2.07 |
| 10 | Braziliya Federativ Respublikası | 1447887.56 | 1.87 |
| 11 | Koreya Respublikası | 1437001.60 | 1.86 |
| 12 | Fransa Respublikası | 1403801.24 | 1.81 |
| 13 | Rusiya Federasiyası | 1211010.08 | 1.56 |
| 14 | İtaliya Respublikası | 873782.26 | 1.13 |
| 15 | Ukrayna | 720813.90 | 0.93 |
| 16 | Belçika Krallığı | 382412.46 | 0.49 |
| 17 | Niderland Krallığı | 253061.55 | 0.33 |
| 18 | Anqilya(Britaniya) | 208494.95 | 0.27 |
| 19 | Meksika Birləşmiş Ştatları | 147076.85 | 0.19 |
| 20 | Tailand Krallığı | 131000.00 | 0.17 |
| 21 | Finlandiya Respublikası | 108450.66 | 0.14 |

| | | | |
|---|---|---|---|
| 22 | İspaniya Krallığı | 94147.79 | 0.12 |
| 23 | Avstriya Respublikası | 91121.32 | 0.12 |
| 24 | Hindistan Respublikası | 78952.19 | 0.1 |
| 25 | Gürcüstan Respublikası | 60502.08 | 0.08 |
| 26 | Slovakiya Respublikası | 55950.04 | 0.07 |
| 27 | Şri-Lanka Demokratik Sosialist Respublikası | 53864.00 | 0.07 |
| 28 | Belarus Respublikası | 40900.00 | 0.05 |
| 29 | Avstraliya İttifaqı | 40000.00 | 0.05 |
| 30 | Tayvan (Çinin tərkibində) | 31944.91 | 0.04 |
| 31 | İsveç Krallığı | 23939.73 | 0.03 |
| 32 | Moldova Respublikası | 16681.76 | 0.02 |
| 33 | Estoniya Respublikası | 10255.87 | 0.01 |
| 34 | İsveçrə Konfederasiyası | 9182.89 | 0.01 |
| 35 | Danimarka Krallığı | 5280.07 | 0.01 |
| 36 | Kanada | 5156.30 | 0.01 |
| 37 | Ruminya | 3000.00 | 0.004 |
| 38 | Polşa Respubliklası | 2680.15 | 0.003 |
| 39 | Malayziya | 805.00 | 0.001 |
| 40 | Bolqarıstan Respublikası | 333.20 | 0.0004 |
| 41 | Cənubi Afrika Respublikası | 123.15 | 0.0002 |
| | **Cəmi** | **77432219.50** | |

Beləliklə, ümumiləşmiş şəkildə ölkələr üzrə idxalın bölgüsü aşağıdakı diaqramda göstərilmişdir:



Qeyd etmək lazımdır ki, hesabat dövründə idxal əməliyyatlarında dövlət sektorunun payı 24293,0 min ABŞ dolları, yəni ümumi idxalın 31,37 %-i, özəl sektorun payı 40541,8 min ABŞ dolları, yəni ümumi idxalın 52,36 %-i , fiziki şəxslərin payı isə 12597,4 min ABŞ dolları, yəni ümumi idxalın 16,27 %-i olmuşdur.




İl ərzində müvəqqəti idxal rejimində muxtar respublikaya 3846,3 min ABŞ dolları dəyərində, 534,6 min ton mal idxal edilmişdir.

2012-ci il ərzində Naxçıvan Muxtar Respublikasından Azərbaycan Respublikasının digər bölgələrinə 12415 ədəd nəqliyyat vasitəsi ilə 63387 ton, Azərbaycan Respublikasının digər bölgələrindən Naxçıvan Muxtar Respublikasına 12465 ədəd nəqliyyat vasitəsilə 253363 ton yük daşınmışdır.

İl ərzində Naxçıvan Muxtar Respublikasının sərhəd keçid məntəqələrindən giriş istiqaməti üzrə 84614, çıxış istiqaməti üzrə 85498, ölkədaxili daşınma üzrə 37349, cəmi 207461 nəqliyyat vasitəsi keçmişdir. Gömrük sərhəddini keçən nəqliyyat vasitələrinin bölgüsü aşağıdakı kimi olmuşdur:

| Nəqliyyat vasitəsinin növü | Olkədən cixiş | Ölkədaxili daşınma | Ölkəyə giriş | Tranzit çıxış | Tranzit giriş | Cəmi |
|---|---|---|---|---|---|---|
| Avtobus | 1550 | 1462 | 1556 | 13 | 13 | 4594 |
| Dartıcı | 2343 | 21338 | 2452 | 96 | 95 | 26324 |
| Qoşqu | 4 | 23 | 1 | | | 28 |
| Minik avtomobili | 77355 | 14041 | 78032 | 2975 | 2974 | 175377 |
| Motosiklet | | | | 2 | 2 | 4 |
| Yük avtomobili | 111 | 485 | 208 | 12 | 12 | 828 |
| Təyyarə | 153 | | 153 | | | 306 |
| **Cəmi** | **81516** | **37349** | **82402** | **3098** | **3096** | **207461** |